# AZƏRBAYCANDA QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARIN YARANMASI VƏ ANTİKOMMUNİST ƏHVAL-RUHİYYƏNİN GÜCLƏNMƏSİ

X.M.ABASOVA, Ə.K.ŞİRİNOVA

Keçmiş ittifaqa daxil olan milli respublikalarda, o cümlədən, Baltikyanı respublikalarda, Gürcüstan, Moldova, Qazaxıstan, Özbəkistan və digər milli ucqarlarda 80-ci illərin sonu- 90-cı illərin əvvəllərində milli dirçəliş, milli azadlıq və müstəqillik mübarizəsinin ilk «qığılcımları» törəməkdə idi. Belə siyasi prosesin fəallaşması nəticəsində Azərbaycanda da milli şüurun yeni baxımdan, daha demokratik xarakterdə formalaşması prosesi gedir və getdikcə də sürətlənirdi.

Digər tərəfdən Azərbaycan rəhbərliyinin 1988-ci ildə getdikcə dərinləşən «Qarabağ» probleminin həllində siyasi səriştəsizliyi, acizlik göstərməsi bu «problemin» həllinin hökumətin deyil, xalqın özü tərəfindən icrası zərurətini ortaya çıxarmışdı. Digər respublikalarda yalnız müstəqillik probleminin həlli əsas məsələ kimi qarşıda durduğu halda, Azərbaycanda bu problem haçalanmış, ikiləşmişdi. Bunun biri müstəqillik uğrunda mübarizə, ikincisi isə ortaya atılan «Dağlıq Qarabağ problemi» idi. Azərbaycan xalqının isə iki problemi birlikdə həll etməyə imkanı çatmırdı, çoxlu maneələr və məhdudiyyətlər mövcud idi.

1988-ci il martın 16-da akademik Z.Bünyadovun təşəbbüsü ilə Azərbaycan Elmlər Akademiyasında qapalı yığıncaq keçirildi (1). Sonra bu yığıncaq mitinqə çevrildi. Mitinqdə ilk dəfə olaraq müstəqillik, suverenlik şüarları söylənməklə yanaşı Qarabağ probleminə münasibətdə mərkəzi hökumətin, şəxsən Qorbaçovun siyasəti tənqid edildi. Belə bir şəraitdə Azərbaycanın demokratik fikirli ziyalıları 1988-ci ilin yayında «Bakı alimlər klubunu» yaratdılar.

Bakıda başlanan siyasi fəallıq tezliklə respublikanın iri şəhərlərinə, o cümlədən, Gəncə, Sumqayıt, Naxçıvan, Mingəçevir, Şəki və digər bölgələrə də təsir göstərdi.

1988-ci ilin əvvəllərində Əbülfəz Əliyevin rəhbərliyi ilə altı nəfərdən ibarət ilk özək yaradıldı, digər təşkilatların formalaşdırılması onların fəaliyyətini bir qədər də sürətləndirdi. Bunlardan «Varlıq», «Qala», «Tərəqqi», «Ozan», «Yurd», «Çənlibel», «Qurtuluş», «Ağrıdağ», «Xürrəmilər», «Xətai», «Müstəqillər», «Aşıq Ələsgər» və s. siyasi təşkilatlar öz fəaliyyətlərində dönüş yaratmağa çalışaraq müstəqillik mübarizəsini kütləviləşdirməyə cəhd göstərirdilər (2).

1988-ci ilin yayında Azərbaycanın bir qrup ziyalısı, o cümlədən, Əbülfəz Əliyev, Yusif Səmədoğlu, Sabir Rüstəmxanlı, İsa Qəmbərov, Nüsrət Kəsəmənli, Etibar Məmmədov Baltikyanı respublikaların xalq cəbhələrinin tələblərində olduğu kimi, SSRİ məkanında respublikanın

suverenlik məsələsini irəli sürürdülər. Ən başlıcası isə yeni yaradılan AXC təşkilatı respublikanın suverenliyi uğrunda mübarizənin ümumazərbaycan miqyasına qaldırılmasını öz üzərinə götürməli idi. Bunun üçün ilk növbədə AXC-nin özü təşkilat kimi formalaşmalı və tanınmalı, qeydiyyatdan keçməli idi. Bununla əlaqədar bir müddət AXC-nin proqramı və nizamnaməsi hazırlandı. Digər siyasi təşkilatlarla məsləhətləşmələr aparıldı. AXC-nin yaradılmasında ən mühüm rol oynayan qeyri-hökumət təşkilatlarından biri də «Varlıq» idi. Bu təşkilat təşəbbüs klubu ilə birlikdə AXC-nin yaradılması işinin reallaşmasında mühüm rol oynamışdı. Belə ki, əhalinin əsasən gənc ziyalılardan, fəhlələrdən ibarət kütləsini öz ətrafına toplamaq, siyasi problemləri irəli sürmək, müstəqillik ideyasını təbliğ etmək, Qarabağ probleminin mahiyyətini, onu törədənlərin çirkin niyyətləri və məqsədlərini geniş xalq kütləsinə çatdırmaq ən başlıca məqsəd kimi qarşıya qoyulmuşdu.

1988-ci il noyabrın 17-dən dekabrın 5-dək mərkəzi meydanda keçirilən mitinqdə bir milyondan artıq adam toplanırdı. Mitinqlərin keçirildiyi müddətdə respublikanın təşkilat və müəssisələrində AXC-ni tanıyan, müdafiə edən 200-dən çox qrup yaradılmışdı (3).

Respublikada qeyri-hökumət təşkilatların formalaşdığı bir dövrdə artan siyasi fəallığın kütləvi şəkil alması Moskvada nəhayət ki, əks-səda doğurdu. Milli respublikalarda başlamış belə hərəkatların qarşısını almaq və yaxud onun siyasi istiqamətlərini hakim quruluşun mənafeyinə uyğun istiqamətləndirmək məsələsi ciddi şəkildə araşdırılırdı.

Moskva Xalq Cəbhəsinin sədri A.Fyodorovski etiraf edirdi ki, indi bütün SSRİ-də xalq cəbhələri timsalında geniş bir hərəkat başlanmışdır. Bunun təhlükəli cəhəti ondadır ki, yuxarı təbəqənin içərisində olan, hakimiyyətə təsir göstərə bilən bir qrup adam xalqı müxtəlif istiqamətlərə apararaq, bu hərəkatın mübarizəsini əsas məqsəddən uzaqlaşdırmağa çalışır. Həmçinin onlar özlərini «orta təbəqə» adlandırırlar. Bax bu təbəqələr ən təhlükəlidir və biz onlara qarşı mübarizə aparırıq (4).

Bununla yanaşı, Moskvada və Rusiyanın digər regionlarında yenidənqurmanın baş tutmamasını dərk edən qeyri-hökumət təşkilatların üzvləri belə bir ideya irəli sürürdülər ki, qeyri-hökumət təşkilatların, milli demokratik hərəkatların qarşısını almaq hazırkı şəraitdə mümkün deyil; bu o zaman ola bilər ki, avtoritar çevriliş baş versin.

Moskva ilə yanaşı Kiyev, Leninqrad, Kişinyov, Alma-Ata, Tbilisi, Daşkənd şəhərlərində, eləcə də Minskdə qeyri-hökumət təşkilatların fəallaşdığı bir dövrdə Azərbaycanda qeyri-hökumət təşkilatların xüsusilə AXC-nin rəsmiləşdirilməsi üçün hakimiyyət dairələri ilə danışıqlar prosesi gedirdi.

Respublikanın rəhbərliyi AXC-nin leqallaşdırılmasında hələ də ehtiyat edirdi. Hərçənd, bu proses Baltikyanı respublikalarda, Rusiyada, Ukraynada, Moldovada, Gürcüstanda, Ermənistanda, Orta Asiya respublikalarında artıq başa çatdırılmışdı. Respublika rəhbərliyinin hələ də tərəddüd etməsinin səbəbi qeyri-hökumət təşkilatların, assosiasiyaların yaradılması haqqında konstitusiyaya istinad edilməyin qeyri-mümkünlüyü ilə izah olunurdu və yenə də gözləmə mövqeyi mövcud idi.

Bu təbii idi. Ona görə ki, hələ 1918-ci il konstitusiyasında azad assosiasiyalar və digər hüquqlar haqqında müddəalar öz əksini tapdığı

halda, 1936-cı ildə İ.V.Stalin demoкratiк ruhlu bütün müddəaları кonstitusiyadan çıxarmağa nail olmuşdu (5). 1977-ci il кonstitusiyasında da SSRİ xalqlarının demoкratiк hüquqları bir növ üstüörtülü şəкildə təsvir olunurdu. Laкin BMT-nin 1966-cı il кonvensiyasındaкı müddəasında hər bir respubliкada qeyri-höкumət təşкilatların, azad assosiasiyaların təşкilinə razılıq verilirdi. Ölкədə gedən demoкratiк prosesləri, milli müstəqilliк hərəкatını dərк etməкdə acizliк göstərən respubliкa rəhbərliyi Mosкva ilə əməкdaşlığa hələ də üstünlüк verirdi. Odur кi, 1988-ci il deкabrın 5-ə кeçən gecə saat 4-də mərкəzi meydanda ordu hissələrinin xüsusi dəstələrini mitinqçilərə qarşı yeritdilər. Nəticədə meydan hərəкatı zor gücünə müvəqqəti olaraq dayandırıldı. Sovet vətəndaşının sovet ordusuna inamı sarsıldı. Həmçinin yenicə formalaşan AXC təşкilat кimi özünü rəsmi dairələrdə tanıda bilmədi. Deкabr qarşıdurması Mosкvanın dəyənəк siyasəti ilə nəticələndi, eyni zamanda ayrı-ayrı liderlərin təqib olunması gücləndi, repressiyalar başlandı.

Ayrı-ayrılıqda siyasi fəaliyyətin pəraкəndəliyini dərк edən liderlər, o cümlədən, Ə.Əliyev 1989-cu ilin fevral-mart aylarında «Varlıq» təşкilatının rəhbərləri ilə AXC-nin təşəbbüs qrupu arasında danışıqlar apardı. Nəhayət, siyasi razılaşmaya nail olundu. Bu razılaşma nəticəsində *müvəqqəti təşəbbüs mərкəzi yaradıldı* və onun tərкibində 10 nəfərdən ibarət əlaqələndirici şura fəaliyyət göstərməyə başladı (6).

Respubliкada siyasi gərginliyin son həddə çatdığı, informasiya qıtlığının yarandığı bir dövrdə təşəbbüs qrupu Qarabağ haqqında məlumatları xalqa çatdırır, vərəqələr yayır, xalqı mövcud quruluşa qarşı mübarizəyə hazırlayırdı. Bir növ haкimiyyətdən кənar, heç bir hərbi-inzibati gücə maliк olmayan qüvvələr, xüsusilə AXC-nin liderləri gərgin siyasi şəraitdə ümid, istinad, inam və iman yerinə çevrilmişdilər.

Siyasi gərginliyin daha da artması ilə əlaqədar xalqın bir sıra görкəmli ziyalısı - İ.Şıxlı, M.Araz, Y.Səmədoğlu, S.Rüstəmxanlı, B.Vahabzadə və b. respubliкa rəhbərliyi qarşısında cəsarətli tələblərlə çıxış etdilər. Belə bir şəraitdə respubliкa rəhbərliyi fiкirləşməк üçün bir aylıq möhlət istədi. 1989-cu il aprelin 14-də möhlət vaxtı başa çatdıqdan sonra respubliкa rəhbərliyi AXC-nin əlaqələndirici şura üzvləri ilə кompromisə girməli oldu. AXC-nin rəsmi qeydiyyata alınmasının mümкünlüyünü yəqin etdiкdən sonra onun sərbəst fəaliyyətinə razılıq verildi (7). Laкin Baкıda milli münaqişə törətməк, təxribatları artırmaq planı qalmaqda idi. Bunu Mosкva və yerli orqanlar daim planlaşdırırdılar.

1989-cu il aprelin sonunda respubliкa rəhbərliyinin müqavimətinə baxmayaraq Baкıda millətlərarası problemə dair кonfrans кeçirildi. Konfransda başlanmış milli münaqişələrin mahiyyəti, respubliкa gənclərinin indiкi şəraitdə məqsəd və vəzifələri təhlil edildi.

Eyni zamanda milli respubliкalarda qeyri-höкumət təşкilatların fəallaşması Mosкvanı ümumi şəкildə narahat etsə də, mərкəzi haкimiyyəti və şəxsən Qorbaçovu təmin edirdi. Yeni formalaşmağa başlayan qeyri-höкumət təşкilatlarla sıx münasibət yaranana qədər mərкəzdə profilaкtiк tədbirlər görməyə, baş verən hadisələrin siyasi analizini aydınlaşdırmaq üçün vaxt qazanmağa, M.Qorbaçovun siyasi sistemin dağılma prosesinə təbiiliк donu geyindirməsinə haqq qazandırmağa imкan əldə

edildi.

Mərkəzin müşahidəçi və gözləmə mövqeyinin davam etdiyi bir dövrdə - 1989-cu il mayın 13-14-də Estoniyada və həmin ay Daşkənddə Özbəkistanın «Birlik» xalq cəbhələrinin təsis qurultayları keçirilməsi nəzərdə tutulurdu (8). Azərbaycan Xalq Cəbhəsinin nümayəndələri də bu qurultaylara dəvət almışdılar.

Keçmiş İttifaqda siyasi proseslərin daha da fəallaşdığı bir dövrdə Qarabağda da vəziyyət gərginləşməkdə idi. M.Qorbaçov 1989-cu ilin yanvarında Qarabağda Xüsusi İdarə Komitəsi təsis etdi. Erməni rəhbərliyi Azərbaycan hakimiyyətinə qarşı daha inamla mübarizəyə qalxdı. Qarabağda Xüsusi İdarə Komitəsinin yaradılması, A.Volskinin bu komitəyə rəhbər təyin edilməsi erməni-Azərbaycan münaqişəsinin yeni bir mərhələyə qaldırılması, yəni ermənilərin silahlandırılması, azərbaycanlıların isə silahsızlaşdırılması siyasətindən ibarət idi. Məhz, A.Volskinin rəhbərliyi ilə azərbaycanlıların Qarabağdan sıxışdırılıb çıxarılması prosesi qanuni şəklə salınaraq bu prosesi sürətləndirdi. Respublika rəhbərliyi mərkəzə sədaqət göstərərək bunu görməməzliyə vursa da, qeyri-formal təşkilatlar, o cümlədən, AXC liderləri görür və barışmaz mövqedə dururdular.

Belə bir şəraitdə 1989-cu il iyulun 16-da Bakıda AXC-nin yarımleqal şəraitdə konfransı keçirildi. Konfrans 15 nəfərdən ibarət İdarə Heyətini seçdi ki, onun da sədri Azərbaycan Elmlər Akademiyası Əlyazmalar İnstitutunun elmi əməkdaşı, tarixçi Əbülfəz Əliyev (Elçibəy) oldu. Konfrans AXC-nin proqram və nizamnaməsini təsdiq etdi (9).

AXC-nin proqramında təşkilatın yaranması ərazi prinsiplərinə əsaslanır, konfederativ struktura malik təşkilatın rəhbər orqanlarının irəli sürdükləri müddəalar məsləhət xarakteri daşıyırdı. Həmçinin AXC sənədlərində ictimai təşkilat kimi xarakterizə olunmaqla, respublikanın ictimai-siyasi həyatında kökündən demokratik yenidənqurma, hüquqi dövlət quruculuğu inkişaf etdirilərək vətəndaş cəmiyyətinin quruculuğu nəzərdə tutulurdu.

Respublikanın siyasi həyatına gəldikdə isə, AXC Azərbaycanın siyasi, iqtisadi, mədəni suverenliyini tələb etməklə yanaşı, Ermənistanın Qarabağı asan yolla işğal etməsinə şərait yaratmışdı. Belə üsul-idarənin SSRİ məkanında inkişaf etdirilməsinin ittifaq federasiyasının təkmilləşdirilməsinin yeni nümunəsi kimi çıxışlar edilirdi. Bu da fakt idi ki, AXC rəhbərliyi yenidənqurmanın mahiyyətini dərk etmədən onu müdafiə edir və deyirdi: «AXC Azərbaycanın tam dövlət müstəqilliyi uğrunda mübarizəni davam etdirəcək» (10).

Azərbaycanda qeyri-hökumət təşkilatların, o cümlədən, AXC-nin siyasi fəaliyyətinin artması ilə əlaqədar milli-demokratik hərəkat da güclənməkdə idi. Belə ki, 1989-cu il iyulun 29-dan avQustun 12-ə kimi olan dövrü hərəkatın formalaşdığı dövr kimi də qəbul etmək olar.

Milli-azadlıq hərəkatının güclənməsi respublika rəhbərliyində narahatçılıq doğursa da, onlar başlanmış bu hərəkatdan Ermənistana qarşı istifadə edə bilməmiş, ümumxalq narazılığını Moskvaya çatdırmaq iqtidarında olmamışlar. Elə buna görə də hakim strukturlar artıq siyasi nüfuzlarını itirmək, hətta hakimiyyətdən getmək təhlükəsi qarşısında qalmışdılar. Bu dövrdə respublikanın rəhbər orqanlarının erməni

təcavüzünə qarşı ciddi tədbir görməməsi, ittifaq hökuməti qarşısında acizlik göstərməsi haqlı olaraq ümumxalq narazılığına səbəb olmuşdu. Bu narazılıq meydan hərəkatı ilə yanaşı, hakimiyyətə təsir vasitəsi kimi kütləvi tətil hərəkatına başlamağa zəmin yaradırdı.

İlk dəfə olaraq leytenant Şmidt (indiki Səttarxan) zavodunun fəhlələri, S.M.Kirov adına ADU-nun (indiki BDU) tələbələri Qarabağda ermənipərəst Volski komitəsinin ləğvi tələbi ilə çıxış etdilər. Azərbaycanın əksər rayonlarından əhalinin Bakıya kütləvi axını və nümayişlərdə iştirakı başlanmışdı.

Respublikada siyasi gərginliyin daha da artdığını görən Ə.Vəzirov 1989-cu il avqustun 14-də mitinqdə yenidən tətilə başlanacağı xəbərdarlığını eşidəndən sonra avqustun 15 və 16-da AXC liderləri ilə görüşüb, söhbət etdi (11). Ə.Vəzirovla AXC liderlərinin danışıqlarında müsbət nəticələrə meyllər mövcud idi. Bu dövrdə, yəni 1989-cu il avqustun 16-da Stepanakertdə (Xankəndində) fövqəladə qurultay keçirildiyi vaxtda və DQMV-nin Azərbaycanın tərkibindən çıxması haqqında ermənilərin bəyanatı yenidən Azərbaycanda hakimiyyətə qarşı narazılığı artırdı. 1989-cu il avqustun 21-22-də iki həftəlik xəbərdarlıq tətili elan edildi. Bu tətil, demək olar, respublikanın bütün sənaye müəssisələrini, dəmir yollarını əhatə etdi. Tətil nəticəsində Azərbaycan sənayesinin dayanması ilə əlaqədar respublikanın iqtisadiyyatına 130 milyon rubl məbləğində zərər dəymişdi (12). Respublikada siyasi gərginliyin daha da artması, iqtisadi böhranın dərinləşməsi, hakimiyyətlə kütlə arasında uçurumun getdikcə dərinləşməsi və genişlənməsi respublika rəhbərliyi ilə AXC rəhbərlərini dialoqa girməyə təhrik etdi.

1989-cu il sentyabrın 10-da Ə.Elçibəy, E.Məmmədov, Y.Səmədoğlu Ə.Vəzirovla danışıqlar apardılar. Televiziya ilə translyasiya olunan bu danışıqlar zamanı müxalifət liderləri Azərbaycan SSR Ali Sovetinin növbəti sessiyasının keçirilməsi, AXC-nin rəsmi tanınması və b. tələblərlə çıxış edirdilər. Nəhayət, 1989-cu il sentyabrın 15-də Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyası, həmçinin AXC liderlərinin də iştirak etdiyi bu sessiyada Ə.Vəzirov verdiyi vədlərə və AXC-nin təkliflərinə yenidən baxacağı haqqında çıxış etdikdən sonra qarşıdurma yenidən genişləndi. AXC liderləri sentyabrın 18-dən ümumrespublika tətilinin yenidən başlanmasını elan edərək Ali Sovetin iclas zalını tərk etdilər.

AXC-nin liderlərinin tələblərində dönməz olduğunu görən respublika rəhbərliyi Ali Sovetin sessiyasını müəyyən müddətə təxirə salaraq, Moskva ilə məsləhətləşmələr apardı və nəhayət, yarımçıq qalmış sessiya sentyabrın 23-də yenidən öz işini davam etdirməyə başladı. 1989-cu il sentyabrın 23-də başlanan müzakirələrdə AXC-nin təkliflərinin əksəriyyəti qəbul edildi. Ən böyük nailliyyət isə konstitusiya qanunu ilə «Azərbaycanın suverenliyi haqqında qanun» rəsmiləşdirildi. Bu qanunun qəbul edilməsi Azərbaycan milli-demokratik hərəkatının ilk və uğurlu tarixi nailiyyətlərindən biri idi.

Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişləndirilməsi əhali arasında kütləvi narazılığa səbəb olduğuna görə haqlı olaraq 1989-cu il sentyabrın sonunda AXC Ermənistanla bütün iqtisadi əlaqələrin kəsilməsi təklifini irəli sürmüşdü. Bu tələbdən sonra Moskva daha çox narahat olmağa başladı və 1989-cu il oktyabrın 2-də Moskvada SSRİ Ali

Sovetinin ikinci sessiyası çağırıldı. AXC nümayəndələrinin də iştirak etdiyi bu sessiyada onlar ittifaq hökuməti qarşısında mühüm təkliflərlə çıxış etdilər. Nəticədə AXC 1989-cu il oktyabrın 5-də Respublika Nazirlər Soveti tərəfindən rəsmi qeydiyyata alındı. «Azadlıq» qəzetinin 200 min tirajla buraxılmasına icazə verildi (13). Lakin cüzi uğurdan sonra 1989-cu il oktyabrın 27-28-də Bakıda AXC məclisinin 1-ci sessiyasında Azərbaycanda milli-azadlıq hərəkatında siyasi nüfuz qazanmış AXC-nin daxilində fikir ayrılığı başlandı, liderlik iddiası ucbatından parçalanma daha da genişləndi. Belə bir şəraitdə radikal qanad AXC-nin fövqəladə sessiyasını keçirməyi tələb edirdi. Liberal qanad isə bu tələblərlə razılaşmır, ideya mübarizəsi daha da kəskinləşirdi (14).

Belə bir şəraitdə AXC-nin idarə heyəti dekabrın 9-dakı iclasında dekabrın 10-a təyin olunmuş sessiyanın təxirə salınması haqqında təklifi qəbul etdi və 5 nəfərdən ibarət təşkilat komitəsi yaradıldı. Müvəqqəti təşkilat komitəsinin 18 dekabr 1989-cu il tarixli qərarına əsasən 1990-cı il yanvarın 6-7-də Bakıda AXC-nin konfransının keçirilməsi planlaşdırıldı. Radikallar təşkilat konfransına rəhbərlik etsələr də, məclisin yeni tərkibinə seçkilər prosesində məğlubiyyətə uğradılar. İdarə heyətinin 14 üzvünün əksəriyyəti liberallar oldu. Bundan inciyən N.Pənahov, L.Yunusova, Z.Əlizadə AXC-dən çıxdıqlarını elan edərək sosial-demokrat partiyasını yaradacaqlarını bildirirdilər (15).

Respublikada qeyri-hökumət təşkilatlarında parçalanma milli azadlıq hərəkatının zəifləməsinə səbəb olur, siyasi gərginlik artırdı. Erməni silahlı qüvvələri bundan istifadə edərək sərhəd rayonlarında basqınlar, qırğınlar törətməkdə davam edirdilər. Onların cinayətləri əksər hallarda ört-basdır edilirdi. Belə ki, 1989-cu ilin avqustunda bir qrup erməni silahlısı Kəlbəcər dağlarında çobanlara hücum edərək qoyun-quzunu aparmağa cəhd göstərmişdi. Yerli milis orqanları fəallıq göstərərək, quldur erməniləri tərksilah edib Kəlbəcərin rayon mərkəzinə gətirdilər. Bunu eşidən erməni quldurları avqustun 12-də Sabir adına kolxozun çobanı M.Rüstəmovu tüfənglə vurub öldürdülər. Ələ keçən ermənilərin xilas edilməsi üçün vertolyotla Kəlbəcərə gələn saqqallı quldurlar həbs olunanları azad etmək məqsədilə yerə enəndə qəzaya uğrayaraq Kəlbəcərin stadionuna düşməyə məcbur oldular. Stadionda oynayan 4 şagirdi qətlə yetirərək aradan çıxmışdılar. Uşaqlarının ermənilər tərəfindən güllələndiyini eşidən valideynlərdən 3-nün ürəyi partlayıb ölmüşdü. Bir gündə bir kənddən 7 cənazə çıxmışdı (16).

Respublikanın ermənilərlə sərhəd rayonlarında baş verən qanlı terror hadisələri paytaxtdakı əhalidən gizlədilir, bəzən də yalan məlumatlar verilirdi. Erməni ziyalıları isə daha da fəallaşmaqda idi. Belə ki, Ermənistan Elmlər Akademiyası hələ 1988-ci ildə ta qədimdən müasir dövrə qədər «Dağlıq Qarabağ-tarixi arayış» kitabını 45 min nüsxə tirajla çap edərək, bütün dünyaya yaydıqları halda Azərbaycanın tarixçi alimləri sıxışdırılır, onlara «şovinist», «millətçi» damğası vurulurdu.

Erməni silahlı qüvvələrinin Azərbaycana qarşı təcavüzünün genişlənməsi, respublika rəhbərliyinin heç bir tədbir görməməsi xalqın qəzəbini daha da coşdururdu. Artıq xalq silahlanmağı və səfərbərlik elan olunmasını tələb edirdi. Partiya komitələrində siyahıyaalınma kampaniyası başlandı. Bunun ardınca Bakıda təşkil olunmuş talanlar da xalqa

divan tutmaq üçün M.Qorbaçova əlverişli bəhanə verdi.

Bakıda mitinqlərin güclənməsi, respublika rəhbərliyinə qarşı istefa tələblərinin irəli sürülməsi, AXC liderlərinin qeyri-taktiki fəaliyyətləri və 1990-cı il yanvarın 17-də MK qarşısında yenidən mitinqlərin başlanması, hətta simvolik dar ağacı da qurulması SSRİ Daxili İşlər Nazirliyinin 12 minlik qoşunlarının Bakıya yeridilməsinə gətirib çıxartdı. Bununla bərabər Azərbaycanda bütün fəaliyyətin məhdudlaşdırılması ilə ermənilərin təcavüzünə şərait yaradıldı. SSRİ Ali Sovetinin 15 yanvar 1990-cı il qərarına əsasən Bakıda, Gəncədə, Dağlıq Qarabağın ətraf rayonlarında komendant saatları tətbiq olunması müəyyənləşdirildi (17). AXC-nin rəhbərləri respublika rəhbərliyi qarşısında məsələ qaldırdılar ki, SSRİ Ali Sovetinin bu qərarı Azərbaycan xalqının milli mənliyinə, suverenliyinə təhqirdir, ona görə də həmin qərar 1990-cı il yanvarın 20-dək ləğv edilməlidir. AXC liderlərinin tələblərini soyuqqanlılıqla qarşılayan respublika rəhbərliyi Moskvadan Bakıya gəlmiş SSRİ Müdafiə Naziri D.Yazova, MK katibi L.Kiriçenko, Daxili İşlər naziri V.Bakatin və Y.Primakovla məsləhətləşmələr aparırdı. Əvvəlcədən hazırlanmış plana görə heç bir xəbərdarlıq edilmədən qoşunlar Bakıya daxil olmalı idi. Bakıya ermənilərin yaşadığı Krasnodar, Stavropol, Rostov, digər vilayət və şəhərlərdən əlavə qüvvələr də gətirilməli idi.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə rus qoşunları tanklarla Bakıya daxil oldular və dinc əhaliyə qarşı tarixdə misli görünməmiş qırğın törədildi. Şənbə gecəsi onların adilikdən qeyri-adiliyə qovuşuq gecəsi oldu (18). Bakıda qanlı yanvar hadisəsi günü Ə.Vəzirov müəmmalı şəkildə şəhəri tərk etdi. AXC-nin 250 nəfərdən çox üzvü həbs edildi. Respublikada yeni repressiya dövrü başlandı və fövqəladə vəziyyət elan edildi. Moskva vəziyyətdən çıxış yolu kimi respublikada seçkilər keçirilməsini irəli sürdü. 1990-cı il iyunun 26-da Respublika Ali Sovetinin sessiyasında «Seçki haqqında» qanun qəbul edildi ki, onun da keçirilməsi vaxtı 1990-cı il sentyabrın 2-ə müəyyənləşdirildi. Keçirilən seçkilərdə demokratik blokun iştirakı da təmin edildi və 50-ə yaxın təşkilatın təmsil olunduğu müəyyənləşdi. 166 seçki dairəsi üzrə AXC özünün 231 namizədini irəli sürmüşdü. Amma AXC nümayəndələri respublika Ali Sovetində yalnız 30 deputat yeri tuta bildilər (19). Respublika Ali Sovetinin işində onların iştirakı isə öz öhdələrinə verildi (20). Parlamentdə fəal iştirakları təmin edildi.

Parlamentdə bir sıra qanun və qərarlarla yanaşı «SSRİ-nin saxlanılması haqqında» referendum keçirilməsi barədə qərar da qəbul edildi. Lakin burada qanun pozğunluğuna yol verildiyini hesab edən AXC deputatları Azərbaycan Respublikası Konstitusiyası 95-ci maddəsinin 18-ci bəndinə istinad edərək iddia qaldırdılar ki, referendum haqqında qanun ən azı 2 ay əvvəl təklifdən sonra qəbul edilə bilərdi (21). Respublika rəhbərliyi isə bu qanunun qəbul olunmasını 10 gün əvvəl irəli sürmüşdü. Həmçinin referendumda səsvermə hüququna malik olan əhalinin yalnız 15-20 faizinin iştirak etməsinin kifayətliyi fakt kimi qarşıya qoyuldu. Xalqın səsvermədə iştirak etməməsi isə 20 yanvar 1990-cı il qırğını nəticəsində sovet siyasi sisteminə, kommunist partiyasına, sovet silahlı qüvvələrinə inamın qırılması və nifrət ilə bağlı idi. Belə ki, 1990-cı il aprelin 1-ə kimi Azərbaycan Kommunist partiyasının 397381 üzvü var

idisə, artıq 1991-ci ildə onun sıralarını 15 min nəfər tərk etmiş, 11084 adam isə partiya biletini yandırıb atmışdı (22).

Milli respublikalarda siyasi dayağını itirmiş Kommunist partiiyasından əhalinin kütləvi şəkildə çıxması, mərkəzin birtərəfli, dini və ya milli əlamətlərə görə siyasət yeritməsi haqlı olaraq kütlələrin narazılığına səbəb olmuşdu. Bu hal digər milli respublikalarda, o cümlədən, Baltikyanı respublikalarda, Gürcüstanda, Qazaxıstanda, Moldovada müşahidə olunmurdu. Moskvanın özündə də B.Yeltsin tərəfindən mərkəzi hakimiyyətə qarşı güclü müxalifət yaradılmışdı. Odur ki, sovet siyasi sisteminin laxladığı, tənəzzülün artdığı bir dövrdə M.Qorbaçov baş verən hadisələrin iqtisadi-siyasi böhranın dərinləşməsinin qarşısını almaqda çətinlik çəkir, çıxış yolları axtarırdı.

1991-ci il avqustun 19-da M.Qorbaçovun Forosda istirahətdə olmasından istifadə edən Yanayev qrupu çevriliş törətməyə cəhd göstərdi. Avqustun 19-22-ə kimi hakimiyyəti əldə saxlayan putçular - qiyamçılar ittifaq miqyaslı sərəncam və bəyanatlar verdilər. Moskva vətəndaş müharibəsi təhlükəsi qarşısında qalmışdı. AvQustun 22-də M.Qorbaçovun Moskvaya qayıtması müəyyən sakitliklə əvəz olunsa da, ölkədə siyasi böhran daha da dərinləşdi. Müəmmalı Moskva çevrilişi siyasi sistemin daha duruş gətirə bilmədiyini büruzə verdi.

Belə bir şəraitdə 1991-ci il sentyabrın 8-də Azərbaycanda özünəməxsus şəkildə prezident seçkiləri keçirildi. Müxalifət qəzetlərinin verdiyi məlumata görə Bakıda, Naxçıvanda bu seçki boykot edilmişdi. Əhalinin 80 faizi bu seçkidə iştirak etməsə də, A.Mütəllibovun prezident «seçildiyi» elan edildi (23).

Respublikada prezident «seçkiləri» başa çatdıqdan sonra hakimiyyətdə olan iqtidarla müxalifət arasında siyasi mübarizə yeni mərhələyə qədəm qoydu. Müxalifət respublikadakı mövcud iqtisadi-siyasi şəraiti daha da gərginləşdirməkdə idi. Sanki Qarabağ unudulmuşdu. Bundan istifadə edən erməni silahlı birləşmələri cəbhə bölgələrində üstünlüyü ələ alaraq, Azərbaycan torpaqlarının işğalını genişləndirməkdə davam edirdi, qaçqınların Bakıya axını çoxalırdı. Yanvar qırğınına qədər respublikanın ictimai-siyasi həyatındakı mühit durğunluq dövrünün obrazı kimi təsvir edilirdisə, yanvar qırğınından sonra respublikada hərbçilərin nəzarəti altında Stalin dövrünə uyğun partiya rəhbərliyi mövcud idi (24).

XX əsrin ən qanlı hadisələrindən - 20 yanvar hadisələrindən sonra hakimiyyətə gəlmiş A.Mütəllibov milli-demokratik hərəkatın liderləri ilə münasibət yaratmaqla hakimiyyəti möhkəmləndirməyə cəhd göstərirdi. Məhz bu məqsədlə AXC-nin liderlərinə parlamentdə yer ayrılır, hakimiyyətin bölüşdürülməsində tarazlığa cəhd edilirdi. Yeni parlamentin iki qrupa-dembloka və kombloka böləndüyü əyani şəkildə müşahidə edilməkdə idi.

İqtidarla müxalifət arasında gedən çəkişmənin yeni mərhələsi siyasi-iqtisadi müvazinətini itirmiş sovet siyasi sisteminə münasibətlə bağlı idi. Belə ki, demokratik blok keçmiş Sovet respublikalarında böhranlı siyasi vəziyyəti respublikadakı siyasi vəziyyətlə müqayisə edərək, referenduma getməməyi və yaxud SSRİ-nin birbaşa ləğvini dəstəkləməyi tələb edirdi. A.Mütəllibov isə Azərbaycanın öz siyasi yolu olduğuna, onun reallaşmasına tam imkan və şərait olacağına inandırmağa çalışır, əslində

isə Moskvanın diktəsi ilə hərəkət edirdi. Bu baxımdan A.Mütəllibov 1990-cı il iyulun 1-də Stepanakertdə Azərbaycan televiziyası ilə translyasiya edilən çıxışında açıqca bildirdi ki, SSRİ-də hansı proseslər baş verir versin, bizim respublikada xalqımızın öz ənənələri vardır. Onun fikrincə bu ənənə Azərbaycan xalqının gücə və nüfuza tabe olmaq xüsusiyyətlərindən ibarətdir. Odur ki, Azərbaycanın «güclü» hakimiyyətə, möhkəm qayda-qanun yaratmağa səriştəlilərə ehtiyacı vardır (25). Beləliklə, Azərbaycanda kommunist rejiminin yeni formasının tətbiqi planlaşdırılırdı. Lakin SSRİ-də milli-azadlıq hərəkatının yeni mərhələyə qədəm qoyduğu, demokratikləşmə prosesinin inkişaf etdiyi və sürətləndiyi bir şəraitdə Azərbaycanın bu prosesdən geri qalması və Mütəllibov siyasətinin müvəffəqiyyət qazanacağı sadəlövhlük idi. Bütün bunlara binaən belə qənaətə gəlmək olar ki, 1985-ci ildən elan olunmuş yenidənqurma konsepsiyası sovet siyasi sistemi və iqtisadiyyatının tənəzzülünün qarşısını almaqda bilavasitə müsbət rolunu oynaya bilmədi. Sovet siyasi sisteminin iqtisadi bazasının dağıldığı bir şəraitdə onun formasını dəyişməklə məzmunun saxlanması siyasəti zamanla ayaqlaşmadığına görə, Qorbaçov siyasəti başlanmış böhranı nəinki dayandıra bilmədi, əksinə laxladılan siyasi sistemin tənəzzül prosesini daha da sürətləndirdi; İttifaq hökumətində başlanmış deformasiya milli respublikalarda da özünü büruzə verərək iqtisadi böhran nəticəsində siyasi gərginlik, milli münaqişə qızışdı, ermənilərin torpaq iddiasına rəvac verildi. Hakimiyyətsizlik şəraitindən istifadə edən ermənilər daha mürtəce planlar tərtib etməyə imkan tapdılar; Respublikanın zəngin xammalı, yeraltı, yerüstü sərvətləri olmasına baxmayaraq sənaye, kənd təsərrüfatı iflic vəziyyətə gətirildi, başlanmış iqtisadi böhran daha da dərinləşdirildi; 1988-ci il hadisələri ilə əlaqədar respublikada vaxtilə gizli fəaliyyət göstərən siyasi dərnəklər, klublar təşkilatlandı, açıq mübarizəyə başladı, demokratik hərəkat milli azadlıq hərəkatına çevrildi. İlk dəfə olaraq müstəqillik mübarizəsi yetkinlik mərhələsinə çatdı; Respublikada qeyri-formal təşkilatların meydana gəlməsilə kütlələrin ümumi birliyinə nail olundu, birgə mübarizə aparmaq təcrübəsinə yiyələnən kütlənin milli müstəqillik mübarizəsinin uğurla başa çatdırılmasına inamı artdı; Keçmiş müttəfiq respublikalarda, o cümlədən, Baltikyanı respublikalarda, Gürcüstanda, Moldovada olduğu kimi hətta qanı axıdılmasından ehtiyat etməyən Azərbaycan xalqı XX əsrdə ikinci dəfə müstəqillik əldə etmək əzmində olduğunu bir daha nümayiş etdirməyə başladı.

## ƏDƏBİYYAT


1. Azadlıq, 1989, №1.
2. Hacızadə H., Əliyev Z. Niyə cəbhə, niyə məhz xalq cəbhəsi. AXC-nin bülleteni. №3, Bakı, 1989, s. 15.
3. Балаев А.Г. Азербайджанское национальное движение: от «Мусавата» до Народного Фронта. Баку, Элм, 1992, с. 39.
4. Голованов В. Гарантии для «неформалов». Литературная газета. 1989, 12 сентябрь, №37 (5259).
5. SSRİ Konstitusiyası (əsas qanun). Bakı. Azərnəşr, 1937, s. 19.
6. Elçibəy Ə.Q. Bu mənim taleyimdir. Bakı, Gənclik, 1992, s. 117.
7. Azadlıq, 1989, №2.
8. Odlar yurdu. 1989, iyul, №7
9. Azadlıq, 1989, №1.
10. Балаев А.Г. Азербайджанское национальное движение: от «Мусавата» до Народного

Фронта, с. 41.
11. Kommunist, 1989, 16 avqust, №188.
12. Kommunist, 1989, 27 avqust, №199.
13. Kommunist, 1989, 4 oktyabr, №229.
14. Azadlıq, 1989, №2.
15. Azadlıq, 1990, №2.
16. Kommunist, 1989, 13 avnust, №187.
17. Черный январь. Документы и материалы. Баку, Азернешр, 1990, Черный январь. Документы и материалы. Баку, Azerneşr, 1990, s. 7.
18. Səməndər Rafiq. Şəhidlər. Bakı. Gənclik, 1990, s. 35.
19. Azadlıq, 1990, №11-12.
20. Azadlıq, 1991, №3.
21. Azadlıq, 1991, №5.
22. Azərbaycan Kommunist Partiyası XXXII qurultayının materialları. Bakı, Azərnəşr, 1991, s. 13.
23. Azadlıq, 1991, №39.
24. Azərbaycan. 1990, 20 iyun, №26.
25. Azərbaycan. 1990, 6 iyun, №24.

## ФОРМИРОВАНИЕ НЕПРАВИТЕЛЬСТВЕННЫХ ОРГАНИЗАЦИЙ В АЗЕРБАЙДЖАНЕ И УСИЛЕНИЕ АНТИКОММУНИСТИЧЕСКИХ НАСТРОЕНИЙ

**Х.М.АБАСОВА, А.К.ШИРИНОВА**

### АННОТАЦИЯ

В данной научной работе нашли отражение исторические процессы 1980-х – начала 1990 –х- годов, когда в бывшем Советском Союзе формировалось национально-освободительное движение. В Азербайджане они переплеталисть с борьбой за территориальную целостность государства, так как армянские националисты, заручившись поддержкой Москвы, готовили планы присоединения Нагорного Карабаха к Армении. В такой сложный период для нашего народа формировались неправительственные организации, которые и вели борьбу за демократию, свободу и территориальную целостность Азербайджана.

Кровавые события 20 января 1990 г привели к формированию антикоммунистических настроений в Азербайджане и в коненчом итоге к распаду СССР.